Azərbaycan Respublikası
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

AZƏRBAYCAN RESPUBLİKASI
ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN

100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ

# "AZƏRBAYCANDA SOSİAL MÜDAFİƏ SİSTEMİNİN İNKİŞAFI: DÜNƏN, BU GÜN VƏ SABAH"

MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN

**M A T E R İ A L L A R I**

**Həşimova A.Ç.**
Sosial xidmət sahəsində dövlət siyasətinin əsas istiqamətləri və idarəetmənin təkmilləşdirilməsi ..... 73

**Hüseynova F.A.**
İnsultlu xəstələrin reabilitasiyası ..... 77

**İbrahimov E.Y.**
Sosial müdafiə və Naxçıvan Muxtar Respublikasında onun aktual məsələləri ..... 81

**Исмаилова М.Ф.**
Роль инновационного кадрового потенциала в развитии системысоциальной защиты населения ..... 85

**Mahmudova R.Ş., Qurbanova K.Ş.**
Eşitmə və nitq əngəlli insanların cəmiyyətə adaptasiyası problemləri ..... 88 V

**Məhərrəmova S.S.**
Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi sahəsində Almaniya Federativ Respublikasi ilə əməkdaşliq əlaqələrinə dair ..... 92

**Мусаева Н.Я.**
Сравнительный анализ социальной работы, проводимой с пожилыми в Великобритании и во Франции ..... 95

**Nəcəfova Z.S.**
Əlilliyi olan uşaqların reabilitasiyası prosesində Günərzi Qayğı Xidmətinin rolu ..... 99

**Ocaqverdiyeva S.S.**
İnternetdə uşaqlari gözləyən təhlükələr və onlarla mübarizə yolları ..... 102 V

**Qurbanova A.F.**
Əqli geriliyi olan uşaqların valideynlərinə, xüsusilə analarına qarşı stiqma ..... 107

**Süleymanov A.Ş., Əhmədova M.İ.**
Əhalinin sosial müdafiəsi sisteminin reallaşdirilmasinda effektiv innovativ texnologiyalar ..... 110

**Alışova F.A.**
Sosial müdafiə sistemində sosial işçinin rolu ..... 114

**Hacıoğlu R.İ.**
Pensiya təminatının mövcud vəziyyətinin təhlili ..... 118

**Tağızadə F.Ə.**
Azərbaycanda əlilliyi olan şəxslərlə bağlı qanunvericiliyin qısa icmalı ..... 123

**Бабаева Л.А.**
Социально-психологическая адаптация детей с синдромом Дауна в семье ..... 127

**Əliyeva N.R.**
Əlilliyi olan şəxslərin reablitasiyasında sosial modelin rolu ..... 131

**Ağayeva S.X.**
Natamam ailələrin sosial müdafiəsi ..... 135

**Əliyev Ü.M.**
Sosial sifarişlər əsasında icma əsaslı sosial reabilitasiya xidmətlərinin təkmilləşdirilməsi problemləri ..... 138

**Zeynalov M.A.**
Azərbaycan və dünya kinosunda əlil təsvirləri ..... 142

**Ismailova Melek Fazil**
*Scientific Research andTraining Center on Labour and Social Problems, doctoral candidate*

**THE ROLE OF INNOVATIVE HUMAN POTENSIALS IN THE DEVELOPMENT OF THE SOCIAL PROTECTION SYSTEM OF THE POPULATION**

***Summary.*** *The thesis discusses the main provisions of the social policy of the Republic of Azerbaijan, specifies the role of social services in the modern conditions of transition to an innovative economy. The nature and role of human potential, as well as its most important component - the innovative potential of employees of social protection agencies, are particularly considered.*

***Keywords:*** *social protection of the population, human potential, innovative specialists, social services, knowledge, skills.*

**Mahmudova Rəsmiyyə Şərif qızı, Qurbanova Kəmalə Şəmil qızı**
*AMEA İnformasiya Texnologiyaları İnstitutu*

# EŞİTMƏ VƏ NİTQ ƏNGƏLLİ İNSANLARIN CƏMİYYƏTƏ ADAPTASİYA PROBLEMLƏRİ

***Xülasə.*** *Eşitmə əngəlli insanların cəmiyyətə adaptasiyası problemləri və onun həlli yolları araşdırılır. Onların kommunikasiyasını asanlaşdırmağa imkan verən yeni texnoloji vasitələr təhlil olunur və müəyyən təkliflər verilir.*

***Açar sözlər:*** *eşitmə əngəlli şəxslər, ünsiyyət, jest dili, adaptasiya, informasiya-kommunikasiya texnologiyaları*

Hazırda informasiya-kommunikasiya texnologiyaları (İKT) cəmiyyətin inkişafını müəyyən edən vacib amilə çevrilmişdir. İKT-nin insanın həyat və fəaliyyətinin bütün sferalarına dərindən nüfuz etməsi, informasiya bolluğunun yaranması, informasiya və biliklərin strateji resursa çevrilməsi sivilizasiyanın yeni tarixi mərhələsi olan informasiya cəmiyyətinin (İC) yaranmasına təkan vermişdir. İC-nin əsas vəzifəsi yaşından, dilindən, dinindən, məkan və zamandan, sağlamlığından asılı olmayaraq, bütün insanların informasiyaya əlyetərliyini təmin etmək, onlar arasında sosial kommunikasiya mühiti yaratmaq, hər kəsin bilik və düşüncələrinin cəmiyyətə çatdırılması üçün şərait yaratmaqdır. İC insanların və bütövlükdə bütün bəşəriyyətin min illərdən bəri miras qalmış qlobal sosial-iqtisadi və mənəvi problemlərinin həlli üçün geniş imkanlar yaradır [1].

Məlumdur ki, sağlamlıq imkanları məhdud olan, o cümlədən eşitmə əngəlli şəxslərin təhsil hüququ-nun həyata keçirilməsi bir sıra problemlərlə bağlıdır. Bu cür insanların tədris prosesində tamhüquqlu iştirakı üçün onların imkanlarına və individual tələbatına cavab verən zəruri şəraitin olmaması, həmçinin kifayət qədər səmərəli tədris metodlarından istifadə edilməməsi ona gətirib çıxarır ki, onlar yaxşı təhsil və ixtisaslara yiyələnə bilmirlər. Təhsilin əlyetərli olmaması isə sağlamlığı məhdud olan insanların müasir cəmiyyətdəki həyat şəraitinə inteqrasiyasının qarşısını alan əsas səbəblərdən biridir.

İKT-nin bir çox problemlərin aradan qaldırılmasında mühüm rol oynadığı hamıya məlumdur. Fiziki imkanları məhdud olan şəxslərin, o cümlədən eşitmə əngəlli insanların cəmiyyətə inteqrasiyası, təhsil, iş imkanlarının artırılması üçün də İKT geniş imkanlara malikdir.

Nitqin, təsvirlərin və videonun emalı texnologiyalarının inkişafı nəticəsində insan – kompüter qarşılıqlı əlaqələri genişlənmişdir. Eşitmədən məhrum insanlar üçün əsas ünsiyyət vasitəsi jestlərdir. Bu cür insanların kompüterlə qarşılıqlı əlaqəsinin təmin edilməsi jestlərin tanınması əsasında qurulmuş sistemlər vasitəsilə ola bilər. Son dövrlərdə bu istiqamətdə tədqiqatların artması müşahidə olunur.

Eşitmə əngəlli insanların, xüsusən də uşaqların sosial adaptasiyası daha çox onun cəmiyyətdə identifikasiyasından, yəni özünü onun üzvü kimi hiss etməsindən asılıdır. Məhdud imkanlı, o cümlədən eşitmə problemləri olan insanın şəxsiyyətinin inkişafı həm jest dilinin hökm sürdüyü müəyyən cəmiyyət şəraitində, həm də eşidən insanların cəmiyyətində baş verə bilər. Təbii ki, bu onun dünyagörüşünün formalaşmasına, vərdişlərinə, dünyaya baxışına öz təsirini göstərəcək. Lakin, bu insanı digərlərinin "özününkü", özü kimi qəbul etməsi də vacibdir, əks halda insan cəmiyyətdə identifikasiya olunmur, insanlarla ünsiyyət qurmaq, işləmək çətin olur, hətta sadəcə yanaşı durmaq belə rahat olmur.

Hazırda dünyada inkişaf problemləri (əlilliyi) olan uşaqların təhsil sistemində əhəmiyyətli dəyişikliklər baş verir, təhsil almaq üçün bərabər hüquq və imkanlar prinsipinə əsaslanan birgə təhsil getdikcə daha çox önəm kəsb etməyə başlayır. Sağlamlıq imkanları məhdud uşaqların və sağlam uşaqların birlikdə təhsil alması inkişafdan geri qalanların sosiallaşmasına imkan yaradır, normal inkişaf edənlərə isə anlamağa imkan verir ki, dünyada müəyyən problemləri olan insanlar var və onlara da digərləri kimi yanaşmaq lazımdır.

Məşhur psixoloq L.S.Vıqotskinin sözlərinə görə: "Defekt bir tərəfdən minusdur, məhdudiyyətdir, zəiflikdir, inkişafda gerilikdir; digər tərəfdən – məhz buna görə, o çətinlik yaradır, o irəliyə doğru əzmli, inadlı hərəkəti stimullaşdırır".

Eşitmə əngəlli L.V.Bethovenin beş simfoniya və böyük ispan rəssamı Qoyyanın şedevrlər yaratması buna əyani sübutdur [2].

"Əlillik haqqında ümumdünya Hesabatı"nda əlillərin və geniş ictimaiyyətin maraqları baxımından əlverişli ətraf mühitin yaradılması, müvafiq sosial dəstəyin təmin edilməsi, inklüziv siyasi tədbir və proqramların işlənib hazırlanması, yeni və mövcud standartların və qanunvericilik aktlarının tətbiqinin təmin edilməsi üçün praktiki tövsiyələr təklif olunur. Bu yanaşmanın əsasında bütün insanların sağlam, rahat və layiqli ömür sürməsi imkanlarına malik olmasını nəzərdə tutan inklüziv dünya konsepsiyası dayanır. Məlumdur ki, sosial reabilitasiyanın mahiyyəti bir tərəfdən sağlamlıq imkanları məhdud insanların cəmiyyətə çıxmağa hazırlanma prosesi və onun nəticələri, digər tərəfdən cəmiyyətin bu cür insanları qəbul etməyə hazır olması ilə bağlıdır [3].

BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasının qüvvəyə minməsi əlillərin təhsilə maneəsiz çıxış imkanlarının yaradılması baxımından olduqca əhəmiyyətlidir. Orada qeyd olunur ki, "bütün uşaqların təhsil və professional hazırlıq sahəsinə aid informasiya və materiallara əlçatanlığının təmin olunması vacibdir" [4].

Azərbaycanda əlillərin, o cümlədən eşitmə əngəlli insanların cəmiyyətə adaptasiyasına şərait yaradılması və onların təhsil, iş imkanlarının artırılması üçün müvafiq tədbirlər həyata keçirilir. Azərbaycan 2008-ci ildə BMT tərəfindən qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulmuşdur.

2012-ci ildə təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının da əsas məqsədlərindən biri əlil şəxslərin cəmiyyətdən təcrid olunmasının qarşısının alınması və sosial infrastrukturdan maneəsiz istifadəsi üçün müvafiq layihələrin hazırlanması, həmin şəxslərin bacarıq və qabiliyyət-

lərinin inkişaf etdirilməsi üçün müvafiq tədbirlərin görülməsi, o cümlədən əlilliyi olan şəxslərin İKT-dən faydalanmaq, kommunikasiya sistemləri vasitəsilə informasiya əldə etmək imkanlarının artırılmasıdır [5].

Karlıqdan əziyyət çəkən insanların ətraf aləm haqqında informasiya əldə etmək imkanları məhduddur. Audial kommunikasiya kanalının olmamasını onlar, həm informasiyanın qəbuledilmə tezliyi, həm də onun dolğunluğu üçün mühüm rol oynayan daktil əlifba, danışığın dodaqdan oxunması, jest dili ilə kompensasiya edirlər.

Eşitməyən və zəif eşidən insanların təhsili və sosial reabilitasiyasında informasiya texnologiyalarından istifadə xüsusilə böyük əhəmiyyətə malikdir. Çünki bu cür insanlarda informasiya əsasən gözlə qəbul olunur, informasiya texnologiyaları sistemlərində isə informasiyanın ötürülməsində əsas yeri vizual kanal tutur.

Tədris prosesində zəif eşidən şagirdə, tələbəyə müxtəlif hadisələri sözlə izah etmək bəzən çətin olur. Kompüter, interaktiv lövhə və multimedia imkanlarına malik digər vasitələr bu kateqoriyadan olan təhsil alanların ətraf aləmi daha yaxşı dərk etməsi və intellektual inkişafı üçün unikal vasitələrdir.

Bununla yanaşı, kompyuterdə səsin tənzimlənməsi imkanı, məsələn, audio və videomaterialın konkret səslənmə tezliyinə uyğunlaşdırılması azacıq qalan eşitmənin məşq etdirilməsi və nitq vərdişlərinin inkişaf etdirilməsi üçün istifadə edilə bilər. Bu isə eşitmə əngəlli insanların sosial adaptasiyasında böyük rol oynayır.

Eşitmə qabiliyyətini itirmiş və zəif eşidən insanların təhsilində video və interaktiv materiallardan istifadə xüsusilə vacibdir. Bu materiallar, müxtəlif hadisə və proseslərin öyrədilməsi ilə bağlı olan tədris materiallarının hazırlanmasında olduqca faydalıdır, çünki onların surdoloji təsviri məhdud söz ehtiyatına malik uşaqlar tərəfindən çətin qavranılır.

Eşitməyən və zəif eşidən tələbələrin təhsilində əlverişli emosional fon yaratmaqla onların ünsiyyət imkanlarının genişlənməsi, təhsilə motivasiya səviyyəsinin inkişaf etdirilməsi baxımından, İnternetdən istifadənin rolu da az deyil.

İKT-nin tədris prosesinə uğurlu tətbiqi tədris materialının mənimsənilməsinin yaxşılaşdırılmasına təsir etməklə, həyata və müxtəlif fəaliyyət sferalarına hazırlığını yaxşılaşdırmaqla eşitmə əngəlli insanların cəmiyyətə uğurlu inteqrasiyasına gətirib çıxara bilər.

Jest dilindən yeganə ünsiyyət vasitəsi kimi mütəmadi istifadə edənlər eşitmə əngəlli insanlardır. Belə insanların sosial mühitə qoşulması üçün jest dilinin əvəzolunmaz rolu vardır.

Hazırda hər ölkənin özünün jest dili, bəzən isə bir neçə jest dili vardır. Ən geniş yayılmış dil ASL amerikan jest dilidir, ondan istifadə edənlərin sayı yarım milyondan çoxdur. Yayılma dərəcəsinə görə siyahıda ondan sonrakı yerləri ispan və italyan jest dilləri tutur. İngiltərənin jest dili amerikan jest dilindən fərqlənir. Çinin və Tayvanın jest dilləri də fərqlidir. Avstriya, İrlandiya və bəzi digər ölkələrdə iki müxtəlif jest dili mövcuddur. Milli və dialekt fərqlərinə baxmayaraq, karlar üçün işarə dillərinin ümumi xüsusiyyətləri var. 1975-ci ildə Ümumdünya Karlar Federasiyası tərəfindən rəsmi mərasimlərdə istifadə məqsədi ilə karlar üçün beynəlxalq lüğət qəbul edilmişdir. Bu lüğətə müxtəlif milli sistemlərdən götürülmüş 1500 daha çox asan başa düşülən işarələr daxildir [6].

Karların jest dili ilə yanaşı, həmçinin daktil jest dili də mövcuddur. Daktil dil – xüsusi kinetik sistemdir. Bu halda əlin hərəkəti (jestlər) ətraf aləmdəki hadisələri deyil, milli dillərin əlifbalarının hərflərini ifadə edir. Daktil işarələr yığımından istifadə edərək, danışan, sözlü dillərin (rus, ingilis və s.) qrammatikasına əməl edir.

Hazırda eşitmə əngəli olan və səsli dillə fikrini ifadə etməyi bacarmayan insanların ünsiyyətini asanlaşdırmaq üçün kompüter sistemlərinin işlənməsi olduqca aktualdır. Buna misal olaraq avtomatik surdotərcümə sistemlərini göstərmək olar. Mətni və ya nitqi jest dilinə çevirən müasir kompüter tərcümə sistemləri əsasən üç altsistemdən ibarətdir: ilkin mətnin analizi, transfer (dillərarası çevirmə) və jest dilinin sintezi. Eyni zamanda, tərcümə sistemləri tətbiqi xarakterli olduğu üçün bunları təmin etməlidir: 1) mətnin yüklənməsi; 2) manekenin köməyi ilə tərcümənin nəticələrinin vizuallaşdırılması; 3) onun strukturunun dəyişdirilməsi imkanı, məsələn, lüğətlərin dəyişdirilməsi/genişləndirilməsi [6].

Jest dili ilə ünsiyyəti asanlaşdırmaq üçün bır sıra texnoloji vasitələr də hazırlanaraq, təcrübədə uğurla tətbiq edilir. Məsələn, jest dilini mətnə çevirən əlcəklər, rabitəni asanlaşdırmaq üçün bilərzik modelində cihaz və jest dilini tanıyan proqram əsasında işləyən kompüter hazırlanmışdır. Hazırda bu layihənin təkmilləşdirilməsi istiqamətində işlər görülür.

Göründüyü kimi, əlil, o cümlədən eşitmə əngəlli insanların cəmiyyətə adaptasiyası üçün əlverişli şəraitin yaradılmasına İKT-nin imkanlarından istifadə etməklə nail olmaq olar. Bunun üçün bir sıra məsələlərin həll olunması vacibdir ki, onlara milli jest dilinin tədrisi və inkişaf etdirilməsi ilə bağlı mövcud problemlərin müəyyən edilməsi; milli jest dili lüğətinin təkmilləşdirilməsi; milli jest dilinin və daktil əlifbasının tanınması sistemlərinin yaradılması istiqamətində elmi tədqiqatların aparılması; müxtəlif layihələrin həyata keçirilməsi və s. aid ola bilər.

**İstifadə edilmiş ədəbiyyat:**

1. İnformasiya cəmiyyəti terminləri. //İnformasiya cəmiyyəti problemləri, 2010, №1, s. 81-82.
2. Выготский Л.С. Основы дефектологии. СПб., 2003, с.18.
3. Всемирный доклад об инвалидности 2011 г. http://apps.who.int/iris/bitstream/handle/10665/70670/WHO_NMH_VIP_11.04_rus.pdf
4. Конвенция о правах инвалидов. http://www.un.org/ru/documents/decl_conv/conventions/disability.shtml
5. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün MİLLİ STRATEGİYA, http://president.az/articles/11312
6. Березовская Ю., Гришанцов Д., Некрасова В., Некрасова К., Носов К., Юфрякова О. Применение возможностей Intel Perceptual Computing SDK для расширения границ взаимодействия людей с ограниченными возможностями с внешним миром. https://www.intuit.ru/studies/courses/10620/1104/lecture/24035?page=2

**Махмудова Расмия Шариф гызы, Курбанова Камала Шамиль гызы**
*Институт Информационных Технологий НАНА*

## ПРОБЛЕМЫ АДАПТАЦИИВ ОБЩЕСТВО ЛЮДЕЙ С НАРУШЕНИЯМИ СЛУХА И РЕЧИ

***Резюме.*** *Исследованы проблемы адаптации в общество людей с нарушениями слуха и пути их решения. Анализируются новые технологические инструменты, которые позволяют им упростить общение, и даются определенные рекомендации.*

***Ключевые слова:*** *слабослышащие, общение, язык жестов, адаптация, информационно-коммуникационные технологии.*

**Mahmudova Rasmiya Sharif, Gurbanova Kamala Shamil**
*Institute Of Information Technology of ANAS*

**PROBLEMS OF ADAPTATION TO SOCIETY OF PEOPLE WITH DISABILITIES HEARING AND SPEECH**

***Summary.*** *The problems of adaptation of people with hearing loss to society and ways to solve them are investigated. New technological tools that allow them to simplify communication are analyzed, and certain recommendations are given.*

***Keywords:*** *hearing impaired, communication, gesture language, adaption, information and communication technologies.*

**Məhərrəmova Sona Səbəddin qızı**
*Sumqayıt Dövlət Universiteti*

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ SAHƏSİNDƏ ALMANİYA FEDERATİV RESPUBLİKASI İLƏ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİNƏ DAİR

***Xülasə.*** *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Almaniyanın Əmək və Sosial İşlər üzrə Federal Nazirliyi arasında qarşılıqlı münasibətlərin qurulması və Anlaşma Memorandumunun imzalanması bu sahədə təcrübənin öyrənilməsinə xidmət edir. Bu gün ölkəmiz əmək təhlükəsizliyi, sosial təminatın yaxşılaşdırılması və əhalinin qorunması sahəsində qabaqcıl ölkələrlə qarşılaşır. Bu, qəbul edilmiş tədbirlərə, qəbul edilmiş proqramlara bir sübutdur.*

***Açar sözlər:*** *əmək, əhali, sosial müdafiə, sosial rifah, memorandum.*

Azərbaycan müstəqilik əldə etdikdən sonra cəmiyət həyatının bütün sahələrində olduğu kimi, əmək və əhalinin sosial müdafiəsi sahəsində də dərin böhran yaranmışdır. Belə ki, SSRİ-nin dağılması ilə Azərbaycana keçmiş Sovetlər Birliyindən çoxlu ağır sosial-iqtisadi problemlər miras qalmışdır. İqtisadiyat demək olar ki, iflic vəziyyətə düşmüşdür. Azərbaycanda iqtisadiyyatın yenidən qurulması və ağır sosial-iqtisadi böhrandan çıxmaq üçün Azərbaycanda iqtisadiyyatın bazar münasibətləri üzərində yenidən qurulması, inkişaf etdirilməsi, eləcə də öz gücünün 15–20 faizi [4, s.8–9] səviyyəsində fəaliyyət göstərən iri müəssisələrin fəaliyyətinin yenidən canlandırılmasına böyük ehtiyac vardı. Lakin müstəqilliyin ilk illərində iqtisadiyyatın yenidən qurulması, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması olduqca çətin idi. Əhalinin vəziyyətini respublikada baş verən siyasi böhran, eləcə də Ermənistanın Azərbaycana hərbi təcavüzü, Dağlıq Qarabağ münaqişəsi də çətinləşdirirdi.

Yalnız ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəlməsindən sonra Azərbaycanda böyük quruculuq işləri başladı. Ölkədə daxili çəkişmələrə son qoyuldu. Siyasi sabitlik yaradıldı.